# Dünyada nə qədər kitab var belə



Qüdrət və kərəm sahibinin sonuncu rəsuluna göndərdiyi «oxu» vəhyi Ulu Tanrı müqəddəs kitabımız «Quran»ın «Qələm» surəsində qələmə və yazıya and içir. Fikrimizcə, burada böyük möcüzələr gizlənir. Sadə anlamda isə bunu belə izah edə bilərik: İlahinin əmrləri qələmlə yazılır və yazı vasitəsilə möhürlənir, hifz olunur. Qələmin, yazının gücü və qüdrəti olduqca böyükdür, ölçüyəgəlməzdir. Alimlər, şairlər, yazıçılar və digər yaradıcı insanlar üçün qələm və yazı müqəddəs vasitələrdir. Çünki onlar kəşflərini, fikir və düşüncələrini bu vasitələrlə möhürləyir, sonra isə xalqın istifadəsinə verirlər. İnsanlar dünyada ilk əlifbaların kəşfindən başlayaraq qələmin yazdığı möcüzələrdən oxu vasitəsilə bəhrələnirlər. On dörd əsrdir ki, tərəqqipərvər bəşəriyyət, həyatda yeni-yeni ixtiralar fikri ilə çalışan insanlar, düşünən beyinlər ilahi kitabın, müqəddəs «Quran»ın nurundan ziyalanır, parlaq işığa qərq olurlar.

*Qadir Allah ulu Məhəmmədi (s) peyğəmbərliyə Cəbrayıl mələk vasitəsilə müqəddəs kitabımız «Quran»ın «Ələq» surəsinin ilk ayələrinin təlimi ilə seçdi. Vəhy belə başlanırdı: «İqrə bismi rəbbikə...», yəni, «oxu öz Rəbbinin adı ilə...» Peyğəmbərə ilk vəhyin «oxu» ifadəsi ilə başlanması ona iman gətirən bütün müsəlmanlar üçün də bu sözün nə qədər vacibliyi öz-özlüyündə bəllidir.*

XI əsrdə Çin sənətkarı Bi Şen tərəfindən kitab çapı işinə başlanması (1041-1048-ci illər) bəşəriyyətin ən böyük elmi nailiyyətlərindən biridir. Bu kəşf uzun əsrlərdir ki, biliklərin toplanması, mühafizəsi və təbliğində misilsiz rol oynayır. Hər dəfə kitablar barədə düşünəndə bu sirli aləmin açarı olan «Əlifba» və onu mənə təlim edən ilk müəllim Hacı Qəzənfər Babayev gözlərim qarşısında canlanır. Kitablar aləminin sehrli dünyasına «Əlifba» qapısından daxil olmuşuq. Bu möcüzəli dünyanın bələdçisi bizə qələm tutmağı, yazmağı, oxumağı öyrədən ilk müəllimimiz olub. Tanrı dərgahında da, cəmiyyətdə də müəllim müqəddəs şəxsdir. Çünki o, təlim edən, öyrədəndir. Peyğəmbərimiz buyurub: «Kim mənə bir hərf öyrətsə, mən ona qul olaram». İslam dinində müəllimin əməyi qadir Allaha ibadət edənlərin işinə bərabər tutulur.

Məhəmməd (s) peyğəmbərin hədislərinin birində deyilir: «Elmi beşikdən qəbrədək öyrənin». Bu müdrik kəlamda dərin hikmət gizlənmişdir. İnsan ömrü boyu oxumağa, öyrənməyə səy etməlidir. Çünki hər bir şəxsin aldığı bilik, öyrəndiyi sənət onun maddi təminatını ödəməklə bərabər, mütəmadi olaraq mənəvi cəhətdən paklanmasına, kamilləşməsinə təsir göstərir. Ona görə də oxumaq, elm öyrənmək, dünyagörüşü formalaşdırmaq ardıcıl, fasiləsiz olmalıdır. İnsan nə qədər çox oxuyursa, daha dərindən dərk edir ki, hələ bilmədikləri çoxdur. Həzrət Əli (ə) buyurub: «Hər qabı doldurmaq olar, elm qabından başqa».

Yaşadığımız əsr ilk növbədə informasiya genişliyi və sıxlığı ilə seçilir. Radio, televiziya, kompüter, internet və digər informasiya texnologiyaları cəmiyyətin həyatına geniş şəkildə daxil olmuşdur. Ancaq bir çox cəhətlərinə görə onların heç biri kitabı əvəz edə bilməz. Məsələn, hər hansı anda diqqətimizi çəkən televiziya kadrını saxlayıb, ikinci dəfə ona baxmaq imkanımız yoxdur. Kitablar isə bizim munisimiz, dostumuzdur. İstədiyimiz yerdə, bizə münasib olan hər hansı vaxtda onlardan bəhrələnirik. Oxuduğumuz cümləni, mətni yaxşı başa düşmədikdə, ikinci, üçüncü dəfələrlə də nəzərdən keçirib mənasını dərindən dərk etməyə çalışırıq. Hərtərəfli bilik əldə etmək üçün kitabların bizə verdiyi imkanlar olduqca genişdir və heç bir digər vasitə onları əvəz də bilməz.

Fəaliyyətinin ilk günlərindən özünə geniş tamaşaçı kütləsinin diqqətini cəlb etmiş ictimai televiziya kanalı cəmiyyət üçün olduqca vacib olan bir çox mühüm məsələlərin müzakirəsinə xüsusi diqqət yetirir. Bu yaxınlarda həmin televiziyanın proqramlarından birinə kitab nəşri ilə məşğul olan naşirlər, alimlər, mətbuat işçiləri, müəllimlər və başqa peşə sahibləri dəvət olunmuşdu. İştirakçılar kitabların nəşri, təbliği, satışı və oxucu barədə məlumat verdilər, fikir mübadiləsi apardılar. Müzakirədə çıxış edənlərin əksəriyyətinin qənaəti belə oldu ki, son dövrlərdə kitablar az oxunur, onların təbliği zəifdir, nəşrlərin tirajı azdır. Məsələnin aktuallığını nəzərə alıb biz də bu barədə fikirlərimizi oxucularla bölüşmək istərdik.

Ədalət və insaf naminə qeyd etmək lazımdır ki, yetmiş il hakimiyyətində yaşadığımız SSRİ hökumətində təhsil və mədəniyyətin təbliği sahəsində çox böyük işlər görülmüşdü. Ən ucqar kəndlərdə məktəb, kitabxana və klublar açılmış, maarifin, mədəniyyətin kütləviliyi əldə olunmuş, savadsızlığın kökü kəsilmişdi. Ölkədə nəşr olunan kitabların tirajı yüksək idi. Respublika kitabxana kollektoru müntəzəm olaraq bütün kitabxanaları yeni kitablarla təmin edirdi. Bakıda, respublikanın digər iri şəhərlərində çoxlu sayda kitab mağazaları fəaliyyət göstərirdi. Bütün rayon mərkəzlərində, qəsəbələrdə, hətta bir çox iri kəndlərdə kitab mağazaları açılmışdı. Kitabların təbliği işinə xüsusi diqqət yetirilirdi. «Kitablar aləmində» adlı nəşr fəaliyyət göstərir, oxucuları müntəzəm olaraq qabaqcadan cari və tematik planlarla tanış edirdi. Azərbaycan televiziyasında həmin adda proqram fəaliyyət göstərir, geniş tamaşaçı auditoriyasını maarifləndirir, kitabların təbliğinə xüsusi yer ayırırdı.

Kitab təbliğinin yaxşı təşkilinin nəticəsi ondan ibarət olmuşdu ki, camaatın əksəriyyətinin kitablara maraq və meyli xeyli güclənmişdi. Məsələn, hər bir tələbə təhsil illərindən ixtisasına aid ədəbiyyat alır, müntəzəm surətdə biliyini artırmağa səy göstərirdi. Gənclər bayramlarda, ad günlərində bir-birinə kitab hədiyyə etməyi hər şeydən üstün hesab edirdilər. O dövrdə şəxsi kitabxanaların sayı gündən-günə çoxalırdı. Mərkəzi kitabxanaların oxu zallarında oxucular çox vaxt kitab oxumaq üçün növbəyə dayanırdılar. Bir çoxları əlvaxt kitab qatarda, avtobusda və digər nəqliyyat vasitələrində mütaliə ilə məşğul olurdular. Buna görə də cəmiyyətdə savadlı təbəqənin ümumi intellekti yüksək səviyyədə idi.

İndiki mərhələdə isə, doğrudan da, kitab oxuyanların sayı xeyli azalmışdır. Bunun bir sıra köklü səbəbləri vardır. Müstəqillik dövrünün ilk illərində ölkənin elan olunmamış müharibəyə cəlb edilməsi, əhalinin iqtisadi vəziyyətinin pisləşməsi, təhsilin ümumi tempinin aşağı düşməsi kitab oxuması işinə də öz mənfi təsirini göstərdi. Latın qrafikalı əlifbanın qəbulundan sonra son on beş ildə orta təhsil alan yeni nəsil kiril əlifbası ilə nəşr olunan ədəbiyyatdan kütləvi şəkildə istifadə etmək imkanını itirdi. Ən başlıca səbəb isə budur ki, kitabların təbliği işi aşağı səviyyədədir. Mətbuatda, radio və televiziyada cəmiyyətin ümumi intellekt səviyyəsinin yüksəldilməsi üçün olduqca vacib olan bu işə çox az yer verilir.

İnsanın mənəvi cəhətdən kamilləşməsi dünyaya göz açdığı, böyüdüyü ailə, oxuduğu məktəb, dərs aldığı müəllim, bir sözlə əhatə olunduğu mühitlə nə qədər bağlıdırsa, bir o qədər də oxuduğu kitablardan, baxdığı televiziya proqramları və kinolardan asılıdır. Kitaba meyl, maraq və məhəbbət, onların təbliği və təsdiqi bir sıra meyarlarla şərtlənir. Burada ailə, məktəb, mədəniyyət müəssisələri və kütləvi informasiya vasitələrinin hərəsinin öz payı vardır. Hansı ailədə yüksək intellekt səviyyəsi varsa, valideynlər elmin faydası, kitab mütaliəsinin səmərəsi barədə müntəzəm söhbət aparırlarsa, özləri bu sahədə şəxsi nümunə göstərə bilirlərsə, həmin ailədə kitablar sevilir, oxunur, toplanır və qorunur. Məktəbdə isə bu iş ibtidai sinif, ədəbiyyat müəllimlərindən və kitabxanaçıdan asılıdır. İbtidai siniflərin ana dili, yuxarı siniflərin ədəbiyyat proqramlarında sinifdənxaric oxu üçün kifayət qədər saatlar ayrılmışdır. Həmin dərslərdə məqsədyönlü şəkildə şagirdlərə dərsdənkənar vaxtlarda oxuyacaqları bədii nümunələr barədə məlumat vermək lazımdır. Uşaqların yaş və bilik səviyyələrinə uyğun kitabların seçilməsi əsas məsələlərdən biridir. Təcrübə göstərir ki, şagirdlərin oxuduqları bədii nümunələr hesaba alınıb qiymətləndiriləndə, onlar bundan həvəslənir, kitablara marağı artır, sonralar da bu prosesi davam etdirirlər.

Kitabların təbliğində kitabxanaların özünəməxsus rolu vardır. Çünki bu mədəniyyət müəssisələrinin əsas vəzifəsi kitabların təbliği, onların oxusunun təşkili, bir sözlə xalqın maariflәndirilməsidir. Ömrünü bu sahəyə sərf edənlər ilk növbədə özləri kitab vurğunu olmalı, mütaliəni sevməli, oxucuları şəxsi nümunələri ilə kitabxanaya cəlb etməlidirlər. Beləlꞏəri yaxşı işi ilə əhalinin hörmət və nüfuzunu qazanırlar. Yeri düşdüyünə görə, qabaqcıllardan biri barədə bir neçə kəlmə qeyd etmək faydalı olardı. Ağaş Mirzəyev uzun illərdir ki, Lerik rayonundakı Azərbaycan kənd kitabxanasında çalışır. Onun fəallığı sayəsində kənddə böyükdən-kiçiyə hamı kitablardan faydalanır. Kitabxananın qapısı həmişə oxucuların üzünə açıqdır. Burada tez-tez oxunan kitablar barədə fikir mübadiləsi aparılır. Yaxşı olar ki, belə qabaqcılların işi mətbuatda təqdir olunsun, başqaları da onlardan nümunə götürsünlər.

Azərbaycan Respublikasının iqtisadi gücü və qüdrəti son illərdə xeyli artmışdır. Allaha çox şükürlər olsun ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» 12 yanvar 2004-cü il tarixli sərəncamına uyğun olaraq xeyli kitab nəşr olunmuş və ölkə kitabxanalarına hədiyyə edilmişdir. İndi qarşıda duran əsas vəzifə bu qiymətli nəşrlərin oxusunu təşkil etmək və onları qorumaqdır. Fərəhləndirici haldır ki, həmin nəşrlər vasitəsilə şifahi xalq ədəbiyyatımızdan başlayaraq bügünkü günə qədər ən yaxşı nümunələr tam əhatə olunmuşdur.

Tarixin bütün dövrlərində mütərəqqi fikirli şəxsiyyətlər, qüdrətli söz sərrafları kitabları çox yüksək qiymətləndirmiş, onlardan həmişə yararlanmağı cəmiyyətə tövsiyə etmişlər. Dahi Nizami Gəncəvi yazmışdır:

*Dünyada nə qədər kitab var belə,*
*Çalışıb, əlləşib gətirdim ələ.*
*Oxudum, oxudum, sonra da vardım,*
*Hər gizli xəznədən bir dürr çıxartdım.*

Doğrudan da, yaxşı kitablar gizli xəzinələrdir. Axtarışa çıxan düşünən beyinlər bu xəzinələrdən çox fayda götürür. İnsan qəlbən, ruhən kitaba bağlananda, onunla ülfət quranda, özünə mənəvi yardımçı, dost tapır. Dostluq isə insanı yaşadır, paklaşdırır və ucaldır. Hər bir insanın həyatında sevincli və kədərli anları olur. Dahi şəxsiyyətlərin müdrik kəlamlarla dolu kitablarının bir neçə dəqiqəliyə mütaliəsi də adamı çətin anlarda ovundurur, ona toxtaqlıq gətirir və həyat barədə, yaşamaq barədə daha dərindən düşünməyə çağırır. Məsələn, İmam Həzrət Əli əleyhisalamın mənaları özündə ehtiva edən «Nəhcül-bəlağə» («Gözəl nitqin işıqlı yolu») əsərinin hər bir səhifəsinin təkrar-təkrar mütaliəsi insanı çoxlu sayda gizli mətləblərdən hali edir. Belə əsərlər hər bir şəxsin gündəlik müraciət etdiyi stolüstü kitabı olmalıdır.

Xalq şairi B.Vahabzadənin uşaqlarımızın dilində əzbər olan aşağıdakı misralarına diqqət yetirək:

*Bu dünyanın hər sirrini*
*Bizə deyir bu kitablar.*
*Ömrümüzün yollarına*
*Nur çiləyir bu kitablar.*

Bəli, kitablar yaraşıqlı dünyamızın gizli sirlərini açır, insan beyninin möcüzəli məhsulu olan poetik parçalarla bizi tanış edir, ömrümüzün yollarına nur çiləyir. Nur isə tükənməz işıq deməkdir. Ona görə də biz kitabları sevməli, oxumalı və təbliğ etməliyik. Bu işi hər birimizin mənəvi borcu səviyyəsinə yüksəltməliyik.

**Hacı BAYRAM**